

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 163 (24.050)

*30 avqust 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ordubad rayonunda məktəb tikintiləri davam etdirilir

*Bu gün muxtar respublikada dövlətimiz tərəfindən təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Elə bunun nəticəsidir ki, ötən dövr ərzində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Hazırda 17 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir.*



Ordubad rayonunda da təhsil müəssisələrinin infrastrukturunun, maddi tədris bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib, ümumtəhsil məktəblərində müasir tədris şəraiti yaradılıb. Elə bunun nəticəsidir ki, müstəqillik illərində rayonda fəaliyyət göstərən 34 məktəbdən 33-ü yenidən qurularaq şagird və müəllimlərin ixtiyarına verilib.

Bu tədbirlərin davamı olaraq hazırda rayonun Azadkəndində və Pəzməridə yeni məktəb binaları tikilir, Xanağa, Unus və Kələki kəndlərində isə məktəb binaları yenidən qurularaq tədris imkanları genişləndirilir.

Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanlar açan, müasirtipli 270 şagird yerlik 3 mərtəbədən ibarət Azadkənd tam orta məktəbində 2-si elektron lövhəli olmaqla, 15 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat, kompüter sinfi, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları fəaliyyət göstərəcək.

Bərpa edilərək müasir maddi-texniki təchizatla, avadanlıqla pedaqoji kollektivin və şagird kontingentinin ixtiyarına veriləcək Xanağa kənd tam orta məktəbində də şagirdlərin rahat təhsil almaları üçün geniş imkanlar yaradılması nəzərdə tutulub. 288 şagird yerlik müasirtipli 2 mərtəbəli yeni məktəb binasında 2-si elektron lövhəli olmaqla, 16 sinif otağı,1 kompüter sinfi, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları fəaliyyət göstərəcək.

Qeyd edək ki, 2004-cü ildə tikilən məktəb binasına yeni korpus əlavə olunub. Məktəbin həyətində açıq idman qurğuları da yaradılacaq.

Yenidən bərpa olunaraq müasir təhsil ocaqları sırasına qoşulmağa hazırlaşan Ordubad rayon Kələki kənd tam orta məktəbində də müasir tədris şəraiti yaradılaraq şagirdlərin ixtiyarına veriləcək. 2 mərtəbədən ibarət olacaq 88 şagird yerlik yeni məktəb binasında müasir sinif, müəllimlər və direktor, kitabxana və digər otaqlar, laboratoriya, kompüter, şahmat və elektron lövhəli otaqlar, idman zalı və hərbi kabinə yenilənəcək.

Yenidən bərpa olunan təhsil ocaqlarından biri də 2 mərtəbədən ibarət Unus kənd tam orta məktəbidir. 120 şagird yerlik məktəbdə 15 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat, kompüter sinfi, elektron lövhəli sinif, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları fəaliyyət göstərəcək.





Rayonun Pəzməri kəndində 2021-ci ilin aprel ayında inşaat işlərinə başlanan məktəb binasında tikinti işləri artıq yekunlaşmaq üzrədir. 66 şagird yerlik 2 mərtəbəli yeni binada 12 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat, kompüter sinfi, elektron lövhəli sinif, müəllimlər otağı, kitabxana, bufet fəaliyyət göstərəcək.

Qeyd edək ki, yenidən qurulan təhsil müəssisələrinin müasir tədris vəsaitləri və informasiya texnologiyaları ilə təminatına da xüsusi diqqət yetirilir. Bu məktəblərin hamısında STEAM kabinələri yaradılacaq, məktəblər müasir kompüterlər, elektron lövhələrlə təmin olunacaq. Məktəblərdə yeni texnologiyaların tətbiqi həm tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, həm də şagirdlərə informasiya-kommunikasiya texnologiyalarının mənimsədilməsinə öz töhfəsini verəcək. Şagirdlər STEAM kabinələrinin imkanlarından istifadə edərək gələcəyin xüsusi qabiliyyət və istedada malik, yaradıcı, yenilikçi, təşəbbüskar şəxsiyyəti kimi formalaşacaqlar.

Ordubad rayonunda təhsilə göstərilən qayğı isə artıq öz nəticəsini verir. Şagirdlər təhsilə göstərilən diqqət və qayğıdan, onlar üçün yaradılan müasir tədris şəraitindən yararlanaraq uğurlu nəticələr əldə edirlər. Elə təhsilə göstərilən qayğının nəticəsidir ki, qəbul imtahanlarında 170 abituriyent 200-500, 23 abituriyent isə 500-700 intervalında bal toplayıb, onlardan 4-ü “Qızıl”, 2-si “Gümüş” nişana layiq görülüb.

Qeyd edək ki, 5 kənddə yenidən qurulan məktəb binaları da 500-ə yaxın şagirdin təhsil şəraitinin yüksəldilməsinə, 100-dən artıq müəllimin isə iş şəraitinin yaxşılaşmasına təsir göstərəcək. Bu isə, öz növbəsində, yüksək təhsil ənənələri olan rayonda tədrisin səviyyəsini yüksəldəcək.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası beynəlxalq tədbirdə təmsil olunub



*Bu günlərdə London şəhərində Avropanın və MDB-nin dövlət qurumlarının, beynəlxalq peşəkar mühasib təşkilatlarının, aparıcı şirkətlərin nümayəndələrinin, mühasibat, vergi, maliyyə nəzarəti və iqtisadiyyatın digər sahələrinin aparıcı mütəxəssislərinin iştirakı ilə beynəlxalq tədbir keçirilib.*

Tədbirin keçirilməsində məqsəd maliyyə hesabatlarının beynəlxalq standartlarına edilən dəyişikliklərin müzakirəsi, maliyyə, daxili nəzarət, mühasibatlıq sahəsində yeni məlumatların əldə edilməsindən ibarət olub.

Hər ölkədən məhdud sayda nümayəndələrin təmsil olunduğu tədbirdə Azərbaycan nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Təhsil Nazirliyinin, Dövlət Neft Fondunun, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin, “Azərişıq” ASC-nin və Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyasının əməkdaşları iştirak ediblər.

Tədbirin təşkilatçısı – “The Institute of Certified Bookkeepers” in direktoru Garry Carter giriş sözü ilə çıxış edib. Böyük Britaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri, Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü Bob Bləkmən öncə ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı Qələbə ilə bağlı təbriklərini çatdırıb. O, dövlətimizin həmin ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq işlərini də xüsusi vurğulayıb. Azərbaycan və Böyük Britaniya arasında strateji xarakter daşıyan münasibətlərin hazırda uğurla inkişaf etdiyini bildirərək həmçinin humanitar sahədə də əlaqələrin əhəmiyyətini və təhsil sahəsində əməkdaşlığın uğurlu nəticələrini qeyd edib.

Tədbirdə Azərbaycan nümayəndə heyəti adından Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov çıxış edib. O, Bob Bləkmənə söylədiyi fikirlərə, belə bir tədbirin keçirilməsinə görə təşkilatçılara təşəkkürünü bildirib. Qeyd edilib ki, bu gün Azərbaycan-Britaniya əlaqələri müxtəlif sahələrdə genişlənir və keçirilən yüksək səviyyəli görüşlər də əlaqələrimizin möhkəmlənməsində mühüm rol oynayır. Sonra Naxçıvan Muxtar Respublikası adından tədbirin təşkilatçısı Garry Carterə Naxçıvanın simvolunu əks etdirən “Haçadağ” rəsm əsəri hədiyyə edilib.

Ukrayna və Qazaxıstandan olan nümayəndələrə söz verilib, sonda xatirə şəkilləri çəkdirilib.

Növbəti gün Böyük Britaniyanın Kral ailəsinə mənsub, qədim tarixi saraylarından biri sayılan St James sarayında Britaniya Kral Ailəsinin üzvü, Kral həzrətləri, Kent Şahzadəsi Maykl GCVO, CD iştirakı ilə ölkələr arasında qarşılıqlı tərəfdaşlığın qeyd olunmasına həsr edilmiş nahar yeməyi təşkil olunub.

Görüşdə Azərbaycan, Ukrayna, Qazaxıstan, başqa xarici dövlətlərin nümayəndələri ilə yanaşı, İngiltərə yüksək zümrəsini təmsil edən nümayəndələr də iştirak ediblər. Britaniya Kral Ailəsinin üzvü, Kral həzrətləri, Kent Şahzadəsi Maykla Azərbaycan nümayəndə heyəti təqdim edilib, qısa söhbət aparılıb. Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini tərəfindən “Möminə xatın türbəsi” rəsm əsəri ona hədiyyə edilib, Möminə xatın türbəsinin tarixindən, onun UNESCO-nun qorunan mədəni abidələri siyahısında olan dünya əhəmiyyətli tarixi abidə olmasından və Naxçıvan Muxtar Respublikasını simvollaşdırdığından qısa bəhs edilib.

ICFM təşkilatının Şərqi Avropada fəaliyyətinin 15 illiyinə təsadüf edən tədbirdə qonaqlara xatirə kimi maliyyə peşəsinin inkişafına verdikləri töhfələrə görə diplomlar təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

*Muxtar respublikada bütün sahələrdə olduğu kimi, rabitə və yeni texnologiyaların inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi diqqətdə saxlanılır.*

## Axura kəndində rabitə infrastrukturu yenilənir



Şərur rayonu da göstərilən bu diqqət və qayğıdan kənarda qalmayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə cari ilin yanvar ayında Şərur rayonunun Çərçiboğan kəndində yeni Rabitə Evinin istifadəyə verilməsi görülən işlərin məntiqi davamıdır. Rayonun bütün yaşayış məntəqələrində əhaliyə ən müasir simli və simsiz texnologiyalar vasitəsilə stasionar telefon, genişzolaqlı internet və bir sıra telekommunikasiya xidmətləri göstərilir. Müasir tələblərə cavab verən yeni nəsil avtomat telefon stansiyaları quraşdırılır, mövcud avtomat telefon stansiyalarının nömrə tutumları artırılır, rabitə xətləri yenilənir, fiber-optik xətlər çəkilir.

Rayonun dağ yaşayış məntəqəsi olan Axura kəndində aparılan genişmiqyaslı abadlıq-quruculuq tədbirləri çərçivəsində rabitə xətt təsərrüfatında da yenilənmə işləri görülür, müasir rabitə infrastrukturu yaradılır. Kənd sakinlərinin müasir telekommunikasiya xidmətlərindən istifadə etmələri məqsədilə Rabitə Evində yenidənqurma işləri həyata keçirilir. Həmçinin bəzi küçələrdə kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltına köçürülür. Yeni dəmir dirəklər basdırılır, yararsız taxta rabitə dirəkləri çıxarılır, 7000 metrdən artıq müxtəlif tutumlu yararsız kabellər yeni kabellərlə əvəzlənir, o cümlədən 20 ədəd yeni abonent qutusu əlavə edilməklə abonentlərin mənzillərinədək olan məsafədə yararsız kabellər yenilənir və rabitə xətlərindəki nasazlıqlar aşkar edilərək bərpa edilir.

Həyata keçirilən tədbirlər, yeni nəsil telekommunikasiya sisteminin qurulması sakinlərin müasir rabitə xidmətlərindən yararlanmasına şərait yaradacaqdır.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

# Zəfər bayramı Türkiyə xalqının qəhrəmanlıq tarixidir





*Hər il avqust ayının 30-u Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü kimi qeyd olunur.*

Zəngin dövlətçilik ənənələrinə malik olan Türkiyə Cümhuriyyəti ötən əsrin əvvəllərində gərgin siyasi və hərbi münaqişələrin mərkəzinə çevrilmişdi. Osmanlı imperiyasının süqutu türk xalqını öz dövlətçiliyini qoruyub saxlamaq və vətəni işğaldan azad etmək uğrunda mübarizəyə sövq etdi. 1920-ci il aprelin 23-də Anadoluda Türkiyə Böyük Millət Məclisi təsis edildi və xalqı təmsil edən hökumət quruldu. Bütün cəbhələrdə uğurlu hərbi əməliyyatlara başlandı, görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazandı. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil oldu. Türkiyənin müstəqillik uğrunda apardığı mübarizədə Azərbaycan xalqı da iştirak etmiş, qardaş Türkiyə xalqına dəstək olmuş, onunla birgə döyüşlərdə iştirak edərək şəhidlər vermişdir.

Ümummilli lider Heydər Əliyev demişdir: ***“Zəfər bayramı türk xalqının… tarixində çox əlamətdar və tarixi gündür. Birinci Dünya müharibəsindən sonra…Türkiyəni hər tərəfdən dağıtmağa, parçalamağa çalışdılar. Ancaq türk xalqı bunların hamısına sinə gərdi, öz qəhrəmanlığını göstərdi və türk əsgəri nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi”.*** Hər iki dövlətin qurucularının – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Qarşılıqlı dostluq və inam xalqlarımızın rifahına, ölkələrimizin gələcək inkişafına xidmət edir. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi iqtisadi layihələr hər iki dövlətin dünyada nüfuzunu getdikcə artırmaqdadır. Eyni zamanda ölkələrimiz beynəlxalq və regional təşkilatlarda həmrəylik nümayiş etdirirlər. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər böyük layihələr həm ölkələrimizin beynəlxalq miqyasda nüfuzunu artırır, həm də xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət edir.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə – 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyi dövründə isə qardaşlıq münasibətləri daha da genişləndirilmiş, Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlər üzrə inkişaf etdirilmişdir.

Bu gün Azərbaycan və Türkiyə prezidentlərinin iradəsinə uyğun olaraq ikitərəfli münasibətlərimiz yeni mərhələyə qədəm qoymuşdur. 2020-ci il fevralın 25-də Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi. İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmir yolu nəqliyyat xəttinin və İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər, bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

44 günlük Vətən müharibəsində Türkiyənin göstərdiyi siyasi dəstək Azərbaycanın haqq işinin qazanılmasında böyük rol oynadı. İkinci Qarabağ müharibəsindəki tarixi Qələbə eyni dil, din və tarixi köklərə malik olan qardaş ölkələrin həm də hərbi-siyasi əməkdaşlığına, iqtisadi əlaqələrinə və diplomatik gücünə, Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsinə töhfə verdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Bu bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə, bəlkə də, ən yüksək səviyyədədir”.***

2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzaladılar. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edəcəkdir. Eyni zamanda Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Bununla yanaşı, tərəfdaşlığın əhəmiyyətini və ölkələrimizin qüdrətini artıran hərbi sənaye sahəsində əməkdaşlıq məsələləri də Bəyannamədə qeyd olunmuşdur. Sənəddə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“İmzalanmış Bəyannamə tarixə əsaslanır. Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”. XX əsrin sonlarında Heydər Əliyev demişdir: “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”. Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk”.***

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı uğurlu əməkdaşlıq da ölkələrimiz və xalqlarımız arasındakı strateji tərəfdaşlığa öz töhfəsini verməkdədir. Ordu quruculuğu, iqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Xüsusilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq ilbəil genişləndirilir. Ənənə halını almış birgə hərbi təlimlər uğurlu əməkdaşlığın nəticəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanla Türkiyə əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***“İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdirlər ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soykök, milli və ortaq dəyərlər birləşdirir”.***

Azərbaycan-Türkiyə dövlətlərarası münasibətləri getdikcə daha da inkişaf edəcək, möhkəmlənəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaqlar.

**“Şərq qapısı”**

---

*Dövlət proqramı icra olunur*

# Sağlamlıq imkanları məhdud uşaqlar yüksək dövlət qayğısı ilə əhatə olunub

*Naxçıvan Muxtar Respublikasında uşaqların sağlam böyümələri, lazımi təhsil və tərbiyə almaları ilə bağlı ardıcıl tədbirlər görülür. Həyata keçirilən dövlət uşaq siyasəti muxtar respublikada uşaqların hərtərəfli inkişafına, onların müasir təhsil və səhiyyə xidmətləri ilə təmin olunmasına şərait yaradıb. Uşaqların həssas qrupunu sağlamlıq imkanları məhdud olan uşaqlar təşkil edir ki, Naxçıvanda bu sosial kateqoriyanın nümayəndələri də yüksək dövlət qayğısı ilə əhatə olunub. Bunun ən mühüm göstəricilərindən biri sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı Dövlət proqramlarının qəbul olunması və icra edilməsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***“Sosial sahə hər bir ölkə üçün vacib olan sahədir. Sosial sahə hər bir insana təsir edir. Onun yaşayış səviyyəsinə təsir edir. Burada həm dövlət siyasəti düzgün aparılmalıdır, eyni zamanda cəmiyyət də bu sahədə dövlətlə bir yerdə olmalıdır. Azərbaycan cəmiyyətində fiziki imkanları məhdud olan insanlara münasibət müsbətdir. Bu, cəmiyyətimizin əlamətidir. Heç də hər yerdə belə deyildir. Dövlət siyasəti də bu istiqamətdə aparılır”.***





Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası davam etdirilir. Proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi cari ilin ilk yarısında da diqqət mərkəzində olmuş, sağlamlıq imkanları məhdud uşaqlar üçün keyfiyyətli təhsil imkanlarının yaradılması istiqamətində işlər davam etdirilmişdir. Birinci yarım ilin sonunda məktəbəqədər təhsil müəssisələrində bu kateqoriyadan olan 64, ümumtəhsil müəssisələrində isə 981 uşaq qeydə alınmışdır.

Sağlamlıq imkanları məhdud uşaqların keyfiyyətli təhsilə cəlb olunması onların inkişafına müsbət təsir göstərir və öz potensiallarından hərtərəfli istifadə etmələrinə imkan yaradır. Eyni zamanda bu sosial kateqoriyanın nümayəndələrinə təhsil prosesində zəruri bilik, bacarıq və vərdişlərin aşılanması onların cəmiyyətə uyğunlaşmasını da təmin edir. Dövlət proqramında da sağlamlıq imkanları məhdud uşaqlara fiziki və əqli potensiallarına uyğun təhsil imkanlarının yaradılması ilə bağlı kompleks tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlərin həyata keçirilməsi cari ilin birinci yarısında da davam etdirilmiş, Təhsil Nazirliyinin tabeliyində Distant Təhsil Mərkəzinin yaradılması başa çatdırılmışdır. Birinci yarım ildə proqramın icrası istiqamətində, ümumilikdə, 15 hərəkət qabiliyyəti məhdud uşaq üçün distant dərslər keçilmişdir. Əlavə olaraq Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəb Azərbaycan dili və riyaziyyat fənlərinin hər biri üzrə 4 cilddə olmaqla, ümumilikdə, 24 brayl əlifbalı kitabla təmin olunmuşdur. Məktəbdə ibtidai təhsilini başa vuran 1 uşağın təhsilini Bakı şəhər Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbində davam etdirməsi təmin edilmişdir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin kitabxanasının sağlamlıq imkanları məhdud uşaqlar üçün nəşriyyat məhsulları ilə təchizatı da davam etdirilmişdir. Belə ki, birinci yarım ildə mərkəzdə fəaliyyət göstərən audiokitabxana xidmətinə 21 yeni əsər əlavə olunmuş, onların ümumi sayı 1520-yə çatdırılmışdır. Həmçinin görmə məhdudiyyətli şəxslər üçün brayl əlifbası ilə “Könül işığı” jurnalının 6 nömrəsi, “Şəfəq” jurnalının isə 2 nömrəsi çap edilərək oxuculara təqdim olunmuşdur. Ümumilikdə, birinci yarım ildə Naxçıvan Regional İnformasiya Mərkəzində Dövlət proqramının icrasına uyğun olaraq 129 sağlamlıq imkanları məhdud uşaq üçün reabilitasiya tədbirləri həyata keçirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətdə layiqli mövqe tutmasına şərait yaradan başlıca amillərdən biri də onlar üçün keyfiyyətli peşə təhsilinin təşkilidir. Bu, uşaqların peşə təhsili müəssisələrində təşkil olunan kursları bitirərək müxtəlif peşələrə yiyələnmələri onların əmək bazarına çıxışının və reabilitasiya imkanlarının genişləndirilməsinə imkan yaradır. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası məqsədilə cari ilin birinci yarısında sağlamlıq imkanları məhdud uşaqların bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə təhsilinə cəlb edilmələri istiqamətində işlər davam etdirilmişdir. Bu dövrdə Naxçıvan Regional Peşə Tədris Mərkəzində və Şərur Texniki Peşə və Sürücülük Məktəbində təşkil olunan bərbər kurslarının hər birini 1, eləcə də Naxçıvan Şəhər Peşə Liseyinin kompüter istifadəçisi kursunu 1 uşaq olmaqla, ümumilikdə, 3 sağlamlıq imkanları məhdud uşaq peşə kurslarını başa vuraraq sertifikatla təmin olunmuşdur. Həmçinin 46 ümumtəhsil məktəbində yuxarı siniflərdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqlar üçün peşəyönümlü məşğələlər təşkil edilmişdir ki, bu da onların peşə seçiminə kömək məqsədi daşımışdır.

Dövlət proqramının icrasına uyğun olaraq birinci yarım ildə məhdud sağlamlıq imkanlarına malik uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə ictimai-mədəni tədbirlərin keçirilməsi də davam etdirilmişdir. Keçirilən tədbirlər sağlamlıq imkanları məhdud uşaqların istedad, qabiliyyət və bacarıqlarının üzə çıxarılması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, bu dövrdə məktəbdənkənar təhsil müəssisələrinin innovativ dərnəklərində keçirilən müxtəlif tədbirlərdə müvafiq kateqoriyadan olan 296 uşağın iştirakı təmin olunmuşdur. Bununla yanaşı, cari ilin ilk yarısında təşkil olunan film nümayişi, kitab müzakirəsi, bayram tədbirləri, yaradıcılıq müsabiqələri, rəsm və əl işlərindən ibarət sərgilər və ekskursiyalar olmaqla, ümumilikdə, 30-dan çox tədbirdə 400-dən artıq sağlamlıq imkanları məhdud uşaq iştirak etmişdir.

Bu sosial kateqoriyanın nümayəndələrinin asudə vaxtının səmərəli təşkilində idman sahəsi də mühüm rol oynayır. İdman məhdud sağlamlıq imkanlarına malik uşaqların sosial reabilitasiyasını həyata keçirməyin ən effektiv formalarından hesab olunur. Birinci yarım ildə proqramın icrası məqsədilə müxtəlif idman növləri üzrə keçirilən 32 yarışda 200-dən çox sağlamlıq imkanları məhdud uşağın iştirakı təmin edilmişdir. Həmçinin bu dövrdə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının müvafiq idman bölmələrinə bu sosial kateqoriyadan olan 61 uşaq cəlb olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsi, eyni zamanda onlara keyfiyyətli tibbi xidmət göstərilməsindən də əhəmiyyətli dərəcədə asılıdır. Dövlət proqramında da bu kateqoriyadan olan uşaqlar üçün tibbi-psixoloji xidmətin təşkili, onların texniki reabilitasiya vasitələrilə təmin olunması ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Bu tapşırıqların icrası istiqamətində yanvar-iyun aylarında Naxçıvan Uşaq Bərpa Mərkəzində 152 sağlamlıq imkanları məhdud uşağın müalicəsi həyata keçirilmiş, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən psixoloji dəstək xidmətinə 55 sağlamlıq imkanları məhdud uşaq cəlb olunmuşdur. Həmçinin qeyd edilən dövrdə 72 sağlamlıq imkanları məhdud uşaq 113 texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmiş, 43 uşağa protez-ortopedik xidmət göstərilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsinə göstərilən diqqət insan amilinə verilən dəyərin nümunəsidir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin kompleks xarakter alması isə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın uğurlu icrası ilə bağlıdır.

**“Şərq qapısı”**

*Tarixboyu düşməni, bədxahı dostundan çox olan türk xalqları taleyini yazmaq, var olmaq məramı qarşılığında dəhşətli cənglərə, qanlı hərblərə təhrik edilib. Bəlkə də, elə həyatı döyüş meydanında keçdiyindəndir ki, mətinləşib, ərənləşib, bütünləşib, adı zəfərlə qoşalaşıb. Türkün zəfər tarixi Bilgə xaqandan Şah İsmayıl Xətaiyə, Məhəmməd Cahan Pəhləvandan Atatürkə qədər zəngin, böyük bir dövrü canlandırır göz önündə. Bu tarix hər gedişində türkün əzəmət və qüdrətini qızıl səhifələrə yenidən həkk edib. Azərbaycan isə 44 günlük Vətən müharibəsində 30 illik işğal tarixinə birdəfəlik son qoymaqla, Tanrı haqqı torpaqlarına sahib çıxmaqla XXI əsrdə türkün yeni Zəfər dastanını yazdı. Dünya təcrübəsində olduğu kimi, dövlətimiz müharibədən sonrakı dövrdə bu qəhrəmanlıq dastanını, şanlı zəfəri əbədiləşdirmək, tarixiləşdirməklə düşmən üzərində təkcə hərbi deyil, siyasi, mənəvi-psixoloji qələbəsini də bütün gerçəklikləri ilə dünyaya bəyan etdi. Azərbaycanın şanlı zəfər tarixini yaşadan bir öyünc, and yeri də var: ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış, Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qisminin, ümumilikdə, 300-dən çox eksponatın, o cümlədən 150-dək ağır texnikanın sərgiləndiyi Hərbi Qənimətlər Parkı…*

2022-ci il "Şuşa ili"dir

# Şanlı zəfər tariximiz

## Hərbi Qənimətlər Parkından reportaj




Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından birinin – "Qarabağ Azərbaycandır!" tarixi gerçəkliyinin nizamla sıraladığı, Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhənin qarşısındayıq. Bu lövhə özü Azərbaycan həqiqətlərini dərk etmək, Azərbaycan-erməni siyasi ideologiyasını, milli mənəviyyatını müqayisə üçün yetərli faktdır. Vaxtilə – Birinci Qarabağ müharibəsindən sonra ermənilər öz dədə-baba torpaqlarından didərgin salınan azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda dünyaya nümayiş etdirib öyünürdülər. Bu nömrələr özündən müştəbeh, qaniçən bir millətin – ermənilərin etnik təmizləmə siyasətinin təzahürü – dinc əhalinin, mülki vətəndaşların minik maşınlarının nömrələri idisə, Azərbaycan döyüş meydanında cəsarətlə vuruşaraq, düşməndən intiqamını alaraq qənimət götürdüyü, ədalətsiz müharibədə düşmənin bizə qarşı istifadə etdiyi hərbi yük maşınlarının nömrələrini sərgiləyir.

İnfoqrafika vasitəsilə 44 günlük Vətən müharibəsinin gedişi haqqında xronoloji ardıcıllıqla məlumat almaq mümkündür. Ali Baş Komandanın şəxsən özünün müjdələdiyi hər bir qələbə xəbərini cəbhədə, iş başında, sükan arxasında, evdə – hər kəsin hansı çılğınlıqla, sevinc göz yaşları ilə qarşıladığını təkrar xatırlayırsan. Ermənilərin Gəncədə, Bərdədə, Tərtərdə dinc sakinlərə qarşı törətdikləri hərbi cinayətlər haqqında məlumatlar milliyyətindən, irqindən asılı olmayaraq, hər bir insanda nifrət, qəzəb hissi oyadır. Bu tarixi xronologiya ilə tanış olduqca, Vətən müharibəsindən sonra dünyada baş verən siyasi-hərbi prosesləri bir daha müqayisə etməklə cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin nəyi, nə vaxt, harada və necə etmək lazım olduğunu zərgər dəqiqliyi ilə bildiyinə, siyasi fəlsəfəsinin böyüklüyünə bir daha əmin olursan. Geriçəkilmələr, məğlubiyyət olmadan, yüksələn trayektoriya, minimum itki ilə ildırımsürətli möhtəşəm Qələbə! Bu müharibənin müasir dünya hərb sənətində bu gün də maraqla öyrənilməsinin, hərbi dərsliklərə salınmasının səbəbi də, heç şübhəsiz ki, budur.

Döyüş meydanında məğlubedilməzlik mifi darmadağın edilən düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirmiş, dinc sakinləri qətlə yetirmişdi. Mülki obyektlərə qarşı işlədilməsi qadağan olunmuş, Şuşanı atəşə tutduqları ortamənzilli "İsgəndər M" və "Smerç" raketləri, nüvə başlığı da daşıya bilən "Toçka-U" raketləri, Ermənistanın bəşər tarixinə qara ləkə sayılacaq hərbi cinayətlərinin əyani sübutudur. Bunlar bir daha sübut edir ki, Azərbaycan alman faşizmindən də qəddar olan erməni vandalizminin qarşısını almaqla dünyada sülhün, ədalətin bərqərar olmasına xidmət etmiş, terrorizm, bəşəri cinayətlər əleyhinə mübarizə aparmaqla əsl sülhsevər siyasət yürütmüşdür. Azərbaycan bu müharibədə hərbi-siyasi strategiyası ilə kiminsə torpağına göz dikən, işğalçı bir ölkə deyil, ərazi bütövlüyünü qoruyan bir dövlət olduğunu bir daha təsdiqləmişdir.

### *İblisə satılmış millət və ya lənət damğası*

Bu parkda ağır T-72 tankları, "Kub" zenit-raket kompleksləri, "Qvozdika" özüyeriyən artilleriya qurğuları, avtomatik zenit topları, "Şilka" özüyeriyən zenit qurğuları, "Şturm-S", "Kornet-EM" və "İqla-S" özüyeriyən tank əleyhinə raket kompleksləri, müxtəlif kateqoriyalı zenit, "Qiansit-B", haubitsa topları və minaatanlar, "Qrad" yaylım atəşi kompleksləri, hava hücumundan müdafiə sistemləri, piyadaların döyüş maşınları, yüksək keçid qabiliyyətinə malik hərbi avtomobillər, minalar və digər silahlar sərgilənir. Bu silahlara baxdıqca düşünürəm ki, bir vaxt Bakıya gəlmək iddiasında olan, dünən qan ocağı kimi ölümsaçan, bu gün isə Zəfər paradındakı lənət keçidindən "əriyərək", "sürünə-sürünə" özünü Hərbi Qənimətlər Parkına "ölü salan" bu texnikalar burada nə qədər də rəzilləşmiş, aciz, miskin, cılız görsənir. Milli şüurun gözü ilə baxdıqda onların üzərində 3 min şəhidimin qan izləri aydın görünür. Bir vaxt bu parkda "çarmıxa çəkilmiş", Bakı küləyinin boş qab kimi danqıldatdığı düşmənin başsız dəbilqələrini xatırlayıram. Sahibsiz qalan, sahibini itirmiş yox, məhz başsız dəbilqələri. On min fərarisi olan, döyüş bayrağına, əsgər dəbilqəsinə belə sahib çıxa bilməyən başsız millətin "hərbi qüdrəti" beləcə, gələcək nəsillərə də sərgilənməlidir. Bu yaxınlarda erməni politoloq Stepan Danielyan "Facebook" səhifəsində həqiqəti belə etiraf etmişdi: "… artıq bizim ordumuz, ləyaqətimiz, özünümüdafiə instinktimiz yoxdur və bizi heç nə birləşdirmir". İblisə satılmış bir millətin, ziyalısı, siyasətçiləri türk (azərbaycanlı) uşağının üzərində insanlığa sığmayan eksperiment aparmaqla ruhunu dirçəldən (?!) zori balayanlar, Fransada Qarabağ iddiası ilə çıxış edən aqanbekyanlar, Şuşada əyyaşlıq edib yallı gedən paşinyanlar olan bir millətin aqibəti başqa cür ola da bilməzdi. İblisin iblis xislətli bir millətin məğlubiyyətinə acı qəhqəhəsi guruldayır qulaqlarımda: "Olduqca müsəllət sana, bil, nəfsi-ləimin, pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın, daim ayaq altında sönüb məhv olacaqsın".

Lənət damğasından dəmir də olsa, sanki göz qarşısındakı əriyən bu texnikaları seyr edərkən azca aralıda yaşından tez yaşlandığı hiss olunan, bənizi vaxtından tez solmuş nənə ilə əl-ələ yapışıb parkı seyr edən 5-6 yaşlı balaca oğlan uşağının məhv edilmiş zirehli texnikaya işarə ilə: "Nənə, bunları mənim atam vurub? Ona görə atama qəhrəman deyirlər?" səsini eşitdik. Nənə balacanın çiynini qucaqlayıb: "Hə, mənim balam, atan vurub. Bir də, bax, o gördüyün "Dəmir yumruq!" Uşaq nənəsinə və onun göstərdiyi stendə baxa-baxa, bir neçə addım geriyə çəkilərək sağ yumruğunu düyünləyib şəstlə yuxarı qaldırdı, "Nənə, bax!", – deyə səsləndi. Bir körpənin



ürəyi boyda olan bu bapbalaca yumruqda bir dünya güc, qətiyyət var idi…

### *"Bütün keçilməzliyi, Vətən, adınla keçdim"...*

Parkın ərazisindəki qarşı tərəfdə 10 elementdən ibarət mühəndis manelər sistemini sərgiləyən möhkəmləndirilmiş müdafiə mövqeyinə yaxınlaşırıq. Tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, piyada əleyhinə mina sahəsi və sair… Bunlar özü sübut edir ki, düşmən, əslində, onilliklərboyu dünyaya sırıdığı ağ yalana özü belə inanmayıb, tarixi həqiqətin gec-tez qalib gələcəyindən, bu torpaqların əsl sahiblərinin tarixi ədaləti bərpa edəcəyindən qorxub. Belə olmasa idi, inkişaf, rifah naminə xərclənə biləcək milyonlar hesabına arxasında qorunmaq, gizlənmək üçün istehkam yaratmazdı. Lakin düşmən bir həqiqəti unudurdu ki, əsl Vətən sevgisi heç bir sədd, sərhəd tanımır. Azərbaycan xalqı "Dəmir yumruğ"a dönüb bu tarixi qələbəni hərb meydanında qazanmaq üçün ən ağır sınaqlardan, manelərdən keçib: siyasi anarxiya və xaosdan, vətəndaş qarşıdurmasından, beynəlxalq antiazərbaycan təzyiqlərindən, xarici havadarlarının inqilab havası ilə oynayan daxili sepəratçıları ram edərək dövlət-xalq-ordu birliyinə nail olmaqdan, beynəlxalq arenada siyasi, iqtisadi, hərbi özünütəsdiqdən, informasiya müharibəsindən… Düşmənin 30 il ərzində qurduğu, milyonlarla dollar vəsait sərf etdiyi, "keçilməz", "nəhəng" istehkamları şanlı Azərbaycan əsgəri qısa müddətdə darmadağın edib, böyük vətənpərvər şair Məmməd Arazın təbirincə desək, bütün keçilməzliyi Vətən adı ilə keçib.

### *Döyüş şöhrətli Naxçıvanım…*

Parkda bu manelərdən sonra düşmən səngərlərinin maketi ilə qarşılaşırıq. Beton dirəklər, maşın şinləri ilə möhkəmləndirilmiş torpaqda qazılan istehkamları gəzərkən insan özünü biranlıq düşmən səngərində hiss edir. Bu gün düşmənin namərdcəsinə, acizliklə qoyub qaçdığı bu sahibsiz səngərlərdən bir naxçıvanlı kimi diyarımın da vaxtilə mərmi, güllə yağışına az tutulmadığını xatırlayıram. Ötən əsrin 90-cı illərinin əvvəllərində düşmənin əsas iştaha dişinin – Naxçıvanı işğal etmək arzusunun alınmaz qalam, ərlik-ərənlik rəmzim Sədərəkdə necə qırıldığını xatırlayıram. Mənfur düşmən ümummilli lider Heydər Əliyevi bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırmağa nail olmaqla Qarabağ münaqişəsini alovlandırdığı kimi, Naxçıvanı da muxtariyyət statusunun ləğv edilməsi yolu ilə işğal etməyə can atırdı. Elim-yurdum yarıac, yarıtox olsa da, düşmənin törətdiyi zülmətə məhkum edilsə də, ovaxtkı hakimiyyətdən nə qədər üzüdönüklük görsə də, sarsılmadı, sınmadı, əyilmədi, düşməni irəli buraxmadı. Yerli əhali haqq yolunda məşəl olacaq ulu öndər Heydər Əliyevin ətrafında birləşdi, Naxçıvanın digər bölgələrindən insanlar Sədərəyi müdafiə üçün axın-axın gəldi, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müstəqil ordu quruculuğunun təməli qoyuldu, görkəmli dövlət xadimi Naxçıvanın muxtar diyar kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu beynəlxalq müqavilələr kontekstində dünyaya isbatladı. Şərəfli mübarizə tariximiz olan elə o illərdə düyünlənməyə başlamışdı "Dəmir yumruğ"umuz! Prezident cənab İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı zamanı tarixi çıxışında o illəri belə xatırlayıb: ***"Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinəsini qabağa verərək öz torpaqlarını müdafiə ediblər, məhz Heydər Əliyev amili hesabına".*** O illərdən söhbət açarkən məzmun və ideya etibarilə Hərbi Qənimətlər Parkının sələfi sayıla biləcək Naxçıvan şəhərindəki Döyüş Şöhrəti Muzeyindən də danışmaq yerinə düşər.




Gənclərin milli-mənəvi tərbiyəsinə, hərbi-vətənpərvərlik ruhunda yetişməsinə xüsusi diqqət göstərilən diyarımızda bu işdə muzeylərin təqdimat və təbliğat funksiyalarından geniş istifadə olunur. 2018-ci ildə – Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü münasibətilə daha bir muzey – Döyüş Şöhrəti Muzeyi istifadəyə verilib. Açıq Səma Altındakı Muzeydə ötən əsrin sonlarında blokadaya salınmış muxtar respublikanın ərazi bütövlüyünün qorunub saxlanılmasında, erməni qəsbkarlarına qarşı müdafiə zamanı istifadə olunmuş onlarla hərbi texnika və qurğular sərgilənir. Gənc pilotların hazırlanmasında istifadə olunan 2 təlim təyyarəsi, Birinci Qarabağ müharibəsində şərəfli döyüş yolu keçən döyüş-nəqliyyat vertolyotu və digərləri. Ölkəmizdə artıq muzeylərdə sərgilənən, eksponatlaşan bu texnikalarla bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunan, düşmənin Vətən müharibəsi zamanı istifadə etdiyi hərbi silah-sursatı müqayisə etdikdə milli ordumuzun silahlanma baxımından da necə bir tarixi inkişaf yolu keçdiyini bir daha aydın görərik. Ən əsası isə orduda yaranan qətiyyət və iradənin, ruh yüksəkliyinin nəticəsi idi ki, Aprel döyüşləri və Günnüt zəfəri ilə daha böyük qələbəyə, möhtəşəm zəfərə zəmin yarandı. Muxtar respublikada aparılan uğurlu gənclər siyasətinin, hərbi-vətənpərvərlik ruhunda tərbiyənin düzgün təşkilinin nəticəsi idi ki, ölkə başçısının da vurğuladığı kimi, naxçıvanlılar Vətən müharibəsində qeyri-adi qəhrəmanlıq, mərdlik və şücaət göstərdi.



Bu, döyüş şöhrətindən şanlı qələbəyə doğru uzanan, möhtəşəm qələbə ilə tamamlanan zəfər yolu idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da dediyi kimi: ***"Şanlı tariximizə çevrilən Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini, yenilməzliyini və birliyini bir daha dünyaya nümayiş etdirdi".***

### *Türkün yeni zəfər dastanı*

Düşmənin hərbi qənimət kimi əldə etdiyimiz silahsursatlarından tutmuş boş mərmi gilizlərindən hazırlanmış işıq dirəklərinə, mərmi yeşiklərindən düzəldilmiş skamyalara, tank mərmisinin barıtatıcılarının futlyarından hazırlanmış zibil qablarına qədər xalqımın şərəf və qürur tarixindən bəhs edən Hərbi Qənimətlər Parkı… Bu park bir xalqın qalibiyyət təntənəsi, onun qəhrəmanlıq şərəfinə yaradılan memorialıdır, rəşadətli, qalib ordusuna təşəkkür borcudur, şəhidlərimizə ehtiram abidəsidir! Şəhid tabutunu vüqarla, yenilmədən çiynində son mənzilə yola salan, övladının son yadigarı – üçrəngli bayrağı öpüb, qoxlayıb gözlərinə qoyan şəhid doğmalarına ən böyük təsəllidir. Onların yanan ürəklərinə səpilən bir ovuc sərin sudur. Qazilərimizin döyüşdə itirdikləri, yeri sızlayan əzalarının əvəzində hiss etdikləri güc, qüvvədir. Erməni vandalizminə, bundan sonra bəşər əleyhinə yönələcək cinayətlərə ən böyük ibrət dərsidir, görkdür Hərbi Qənimətlər Parkı. "Dəmir yumruğ"un Laçın şəhərində, Zabux və Sus kəndlərində və digər yurd yerlərimizdə şimşəktək çaxacaq növbəti "Qisas"ı nəticəsində yeni eksponatlarla zənginləşəcək bu park! Xalqımın şərəf, ləyaqət, qəhrəmanlıq tarixi, türkün yeni zəfər dastanıdır Hərbi Qənimətlər Parkı. Çünki Ali Baş Komandan, ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***"Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün Türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***
***13-22 avqust, Naxçıvan-Bakı-Naxçıvan***

# Zəngin çeşid, sərfəli qiymət və keyfiyyətli məhsullar bu ünvanda...

***Yeni dərs ilinin başlanmasına sayılı günlər qalır. Hər il olduğu kimi, bu yeni tədris ili ərəfəsində də şagirdlər həyəcanlı, valideynlərsə qayğılıdır. Dərs ləvazimatları, məktəbli formaları, çantalar və adını sadalamadığımız digər zəruri tələbatların alınması üçün valideynlər səylə çalışırlar ki, övladlarını məktəbə tam hazırlıqlı yollasınlar. Şəhərimizdə məktəbli ləvazimatlarının satışı üçün çoxsaylı mağazaların olmasına baxmayaraq, nədənsə valideynlərin daha çox üz tutduğu ünvan "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzidir. Səbəbini isə gəlin birlikdə öyrənək.***



Yol aldığımız mağazaya daxil olarkən burada qələbəlik müşahidə edirik. Qələbəliyin səbəbkarlarının bir qisminin buraya məhz məktəb ləvazimatları almaq üçün yollandığını mərkəzin müdiri ***Mirələsgər Seyidov***dan öyrənirik. Mərkəzi gəzərkən, ilk növbədə, diqqəti ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitablar, müstəqillik illərində Naxçıvanla bağlı çap olunmuş elmi ədəbiyyatlar, oxunması zəruri olan kitablar çəkir. Rəflərə səliqə ilə düzülmüş Yazıçılar Birliyi üzvlərinin əsərləri, müxtəlif bədii ədəbiyyatlar, broşürlər, bukletlər, miniatür kitablar və daha nələr, nələr... Amma müşahidələrimdən aydın görürəm ki, alıcılar məktəb ləvazimatlarına, dərs planlarına, lüğətlərə, hüsnxətlərə, çantalara daha çox maraq göstərirlər.





Mağazanın müdiri də fikrimizi təsdiq edərək deyir ki, 2021-ci ildən fəaliyyətə başlayan Sərgi-Satış Mərkəzində satılan məktəbli ləvazimatlarına tələbat çoxdur. Mərkəzdə məktəbli ləvazimatlarının uyğun qiyməti və çeşid zənginliyi alıcı marağını artırır. Dərs ilinə hazırlıqla əlaqədar mərkəzdə müəllimlər və valideynlərə çantalar 8 manatdan başlayan qiymətlərlə, məktəbli kitabçaları, lüğətlər 1 manat 50 qəpikdən 2 manat 50 qəpiyə, müəllimin dərs planı 2 manatdan 5 manata, həmçinin digər məhsullar da daha sərfəli qiymətlərlə təklif olunur.

Mirələsgər Seyidov deyir ki, hər il olduğu kimi, bu tədris ilinin başlanması ərəfəsində də – sentyabrın 1-dən 15-dək məktəbli yarmarkaları təşkil olunacaq. Ötən il olduğu kimi, bu il də "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzi olaraq birlik tərəfindən hazırlanan və nəşr edilən məktəbli ləvazimatları – illik və gündəlik dərs planları, məktəbli kitabçaları, lüğətlər, hüsnxətlər, dəftərlər, yüksəkkeyfiyyəti ilə diqqəti cəlb edən məhsullarla yarmarkada iştirak edəcəyik. Ötən il yerli istehsal olan həmin məhsullar, xüsusilə üzərində muxtar respublikanın mədəni-tarixi abidələrinin, görkəmli yerlərinin şəkilləri olan, məktəblilərin öz yurd yerimizi daha yaxından tanımaları məqsədi daşıyan ləvazimatlar böyük alıcı marağına səbəb olmuşdu. Bu il də çalışmışıq ki, geniş alıcı kütləsinin diqqətini çeşid-çeşid, rəngarəng, maraqlı məhsullarla cəlb edək.

Burada olarkən söhbətləşdiyimiz valideynlər məktəbli övladları üçün yaradılmış şəraitdən xeyli razılıq edirlər.

Valideyn ***Sevinc İbrahimova*** deyir ki, burada ləvazimatlar şəhərdə fəaliyyət göstərən digər mağazalarla müqayisədə daha münasib qiymətədir. Əgər məktəbli üçün lazım olan bütün ləvazimatlar alınırsa, o zaman endirim də edirlər. Bu biz valideynlər üçün çox sərfəlidir. Hər bir valideyn çalışır ki, yeni tədris ilində övladına yeni dərs ləvazimatları alsın. Elə mağazalar var ki, satıcılar alıcılara yüksək qiymətlə məhsullar təklif edirdilər. Düşünürdülər ki, valideynlər nə olursa-olsun, həmin ləvazimatları almağa məcburdur. Şəhərimizdə yaradılan belə satış mərkəzləri, məktəbli yarmarkaları süni qiymət artımının qarşısını alıb. Bu isə həm xərclərin optimallaşdırılması, həm də daha keyfiyyətli ləvazimatlar əldə etmək baxımından əhəmiyyətlidir.

***Sevginur Zeynalova*** isə nəvələrinə məktəbli ləvazimatları almaq üçün mərkəzə gəldiyini bildirir. O deyir ki, bir zamanlar bütün sahələrdə olduğu kimi, təhsilimizdə də vəziyyət acınacaqlı idi. Lazım olan dərsliklərin tapılmaması, yaxud onların bazarlarda çox baha qiymətə satılması adi hala çevrilmişdi. Artıq o günlər xeyli geridə qalıb. Bu mənada, indi orta məktəblərdə təhsil alan şagirdlərə qibtə ilə baxmaq olar. Onlar üçün burada nə istəsən var. Mən də nəvələrim üçün buradan lazımi ləvazimatları aldım. Bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, mərkəzdə təkcə şagirdlər üçün deyil, müəllimlər üçün də müəyyən ləvazimatlar satışa çıxarılıb. Burada olarkən Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin biologiya müəllimi ***Türkanə Seyidbəyli*** də öz müəllim yoldaşları ilə bərabər ləvazimatlara baxır, nələrsə almaq üçün götür-qoy edirdi. Yaxınlaşıb, müəllimin satışa çıxarılan məhsullarla bağlı fikirlərini öyrənirik. Deyir ki, çeşid çox olanda seçim etmək qərarı da çətin olur. Övladlarına karandaş, dəftər, çanta və müəllim üçün lazım olan ləvazimatlar almaq istədiyini bildirən Türkanə müəllim sözlərinə belə davam edir: "Əvvəllər ilin bu mövsümündə valideynlərlə yanaşı, müəllimlərin də qayğıları artırdı. Ancaq belə bir mağaza və məktəbli yarmarkaları işimizi xeyli yüngülləşdirib, artıq vaxt itirib bir neçə mağazaya deyil, buraya üz tuturuq. Çünki burada seçimetmə imkanlarımız genişdir. Çeşid çox, qiymətlər ucuz, məhsullar isə keyfiyyətlidir.

Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin tarix müəllimi ***Rəmzi Babayev***in də mərkəzlə bağlı fikirlərini öyrənirik. O deyir ki, artıq iki ildir, həm özüm, həm də övladlarım üçün zəruri ləvazimatları buradan alıram. Ləvazimatlar həm keyfiyyətlidir, həm də sərfəli. Ən əsası isə az zaman sərf etməklə dərs vəsaitlərini, keyfiyyətli məktəb ləvazimatlarını güzəştli qiymətlərlə əldə edirik. Belə yarmarkaların təşkili həm valideynlərə, həm də müəllimlərə daha bir qayğının ifadəsidir.

Süni qiymət artımının qarşısının alınması, valideynlərin maddi vəziyyətinin övladlarının təhsil xərclərini ödəməkdə çətinlik çəkməməsi məqsədilə yaradılan belə mərkəzin fəaliyyətindən razılıq edən təkcə müəllimlər və valideynlər deyildi. Naxçıvan Müəllimlər İnstitutunun İbtidai sinif müəllimi ixtisası üzrə üçüncü kurs tələbəsi ***Firuzə Vəliyeva*** da bu şəraiti yaradanlara təşəkkür etdi. Dedi ki, artıq iki ildir ki, dərs üçün lazım olan ləvazimatları buradan alır. Qiymətlər bazar qiymətlərindən xeyli aşağıdır. İkinci sinifdə oxuyan qardaşı var. Onun üçün çantalara baxır. O qədər çox çeşid var ki... Elə buna görə də seçim rahatdır.

*Müşahidələrimizə əsasən deyə bilərik ki, mərkəz yeni tədris ili ərəfəsində müəllim və şagirdlərin məktəb ləvazimatlarına olan tələbatlarının daha rahat şəkildə təmin edilməsində mühüm rol oynayır. Alıcılarla söhbətimizdən də o qənaətə gəldik ki, burada məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili hər kəs tərəfindən razılıqla qarşılanır.*

**✍ Gülcamal TAHİROVA**

# Xalq teatrlarının muxtar respublikanın rayonlarına qastrol səfərləri davam edir

*Ordubad Rayon Mədəniyyət Sarayında Babək Rayon Xalq Teatrı tərəfindən Səid Rüstəmovun "Durna" üçpərdəli musiqili komediyası əsasında hazırlanan eyniadlı tamaşa nümayiş etdirilib.*



Tamaşaçıların böyük maraqla izlədiyi, quruluşçu rejissoru Yusif Əliyev, musiqi tərtibatçısı Səyyad Məmmədov, rejissor assistenti Ələkbər İsmayılov, tərtibatçı rəssam Nərmin Seyidova olan tamaşada rolları Nuray Mehdiyeva, Məhərrəm Nadirov, Rasim Qasımov, Gülşən Güləliyeva, Ələkbər İsmayılov, Stella Babayeva və Abbas Babayev oynayırlar. Əsərdə sovet dövründə kənd həyatından, briqadalarda çalışan əmək adamlarının fəaliyyətindən bəhs edilir, qabaqcıl, işgüzar, tənbəl, köhnəfikirli insanlara qarşı mübarizə təsvir edilir, iki gəncin – Durna ilə Muradın arasındakı saf məhəbbətdən söz açılır.

Qeyd edək ki, son illərdə Babək Rayon Xalq Teatrı tərəfindən hazırlanan, bir-birindən maraqlı əhvalatları, real həyat hadisələrini, vətənpərvərliyi təbliğ edən səhnə əsərləri tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanır. Bu illər ərzində kollektivin uğurları təkcə səhnə əsəri hazırlamaqla məhdudlaşmayıb, eyni zamanda istedadlı həvəskar aktyorların üzə çıxarılması və püxtələşməsi də diqqət mərkəzində saxlanılıb, kollektivin əməyi yüksək qiymətləndirilib.

Onu da diqqətə çatdıraq ki, il ərzində musiqi və teatr kollektivlərinin muxtar respublikanın rayonlarına qastrol səfərləri davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Meşə yangınlarına qarşı etibarlı mühafizə sistemi qurulub

Muxtar respublikada ekoloji məsələlər prioritet istiqamət kimi diqqətdə saxlanılır, mövcud yaşıllıqların qorunması məqsədilə yanğından mühafizə tədbirlərinə ciddi əməl edilir, bu sahədə fəaliyyət gücləndirilir. Bu tədbirlərin davamı olaraq muxtar respublikanın bir sıra bölgələrində baş verə biləcək potensial yanğın riskinə qarşı tədbirlər görülüb, ilkin müdaxilə üçün məntəqələr yaradılıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Ordubad rayonu ərazisindəki meşələr üçün Nürgüt kəndində, Şərur rayonundakı Qaraquş meşəsi üçün Tənənəm kəndində, Şahbuz rayonu ərazisindəki Biçənək meşə sahələri üçün Zəngəzur Milli Parkı ərazisində və Culfa rayonu ərazisindəki meşələr üçün Ləkətağ kəndində məntəqələr yaradılıb və müasir yanğınsöndürmə vasitələri ilə təchiz edilib.

Məntəqələrin hər biri motorlu su nasosu, 200 metr uzunluğunda 50 diametrlik yanğınsöndürmə şlanqı, 6 ədəd 20 litrlik su tutumu olan su-çiləyici avadanlıqlarla təmin edilib. Bu avadanlıqlar həmin ərazilərdəki meşə və meşəətrafı sahələrdə baş verə biləcək yanğınların dərhal qarşısının alınmasına təminat verir.

Bundan başqa, bu günlərdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşları tərəfindən Ordubad rayonu ərazisindəki Bist Dövlət Meşəsinə təhvil verilən texniki vasitələr yoxlanılıb, baş verə biləcək yanğın zamanı ilkin müdaxilə məqsədilə təlim keçirilib. Yaxınlıqdakı su mənbələri barədə məlumat verilib, texniki vasitələrin istifadə qaydaları izah edilib.

***Xəbərlər şöbəsi***

# Seminar keçirilib



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) birgə təşkilatçılığı ilə "Məhkəmə qərarlarının icra olunmaması və məsuliyyət" mövzusunda seminar keçirilib.*

Seminarda məhkəmə qərarlarının vaxtında və tam icra olunmasının vacibliyi diqqətə çatdırılıb. Qeyd olunub ki, bu gün qüvvədə olan qanunvericiliyə əsasən məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Çıxışlarda alimentin tutulmasının şərtləri, qaydaları barədə qanunvericiliyin tələbləri, alimentlə bağlı yaranan çətinliklər və onların aradan qaldırılması istiqamətində görülən işlərdən də bəhs edilib.

Sonda suallar cavablandırılıb, bukletlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Babək rayonunun Şəkərabad kəndində yaşamış Novruzova Qonça Rza qızının adına olan JN-145 inventar nömrəli, 10312048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində yaşamış Salahov Habil Valeh oğlunun adına verilmiş JN-096A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 19 ünvanında yerləşən 9 mərtəbəli çoxmərtəbəli yaşayış binasına aid 16002 inventar nömrəli texniki pasport və MH-0032447 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Atatürk küçəsi, 9 ünvanında yerləşən 8 mərtəbəli çoxmərtəbəli yaşayış binasına aid 16335 inventar nömrəli texniki pasport və MH-0035373 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi, 5 ünvanında yerləşən 10 mərtəbəli çoxmərtəbəli yaşayış binasına aid 14421 inventar nömrəli texniki pasport və MH-0017242 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi, 6 ünvanında yerləşən 15 mərtəbəli çoxmərtəbəli yaşayış binasına aid 14442 inventar nömrəli texniki pasport və MH-0018347 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi, 7 ünvanında yerləşən 10 mərtəbəli çoxmərtəbəli yaşayış binasına aid 14423 inventar nömrəli texniki pasport və MH-0017244 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 759